**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# REGİON

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

**№ 156 (1284) 24 avqust - 25 avqust 2016-cı il**

*(Əvvəli ötən saylarımızda)*

Hesabat dövründə Qax rayon Dövlət Rəsm Qalereyasında təmir işləri aparılmış, Zəyəm kənd körpələr evi-uşaq bağçasının isə təmirinə başlanılmışdır. Zəyəm kənd xəstəxanasında, Almalı və Qaşqaçay mədəniyyət evlərində, Rayon Mərkəzi Xəstəxanasının həyətində və Rayon Poliklinika binasında təmir işlərinin aparılması üçün hazırda layihə-smeta sənədlərinin hazırlanması işləri aparılır.

Ötən müddət ərzində Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin və şəhərin giriş hissəsində Dövlət Bayrağı Meydanının tikintisi işləri davam etdirilmişdir.

Hesabat dövründə Kənd Təsərrüfatı Nazirliyinin Qax rayonu üzrə İdarəsinin inzibati binasının və şəhərin İ.Dağıstanlı küçəsindəki 180 yerlik uşaq bağçasının tikintisi, Turaclı kənd uşaq bağçasının əsaslı təmiri başa çatdırılmış, şəhərin 28 May küçəsində 100 yerlik körpələr evi-uşaq bağçasının və Ağçay kəndində bir qruplu uşaq bağçasının tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir. Cari ilin altı ayı ərzində rayonda 39 ədəd fərdi yaşayış evi və 8 ədəd sahibkarlıq obyekti olmaqla, ümumilikdə 47 fərdi tikinti aparılmışdır.

Ötən müddət ərzində rayonun 13 yaşayış məntəqəsində Qorağan, Qarameşə, Amanlı, Baydarlı, Qazmalar, Süskənd, Fıstıqlı, Turaclı, Çüdülü, Marsan, Lələli, Qındırğa və Qarabaldır kəndlərində modul tipli sutəmizləyici qurğuların quraşdırılması işləri davam etdirilmiş, işlər hazırda yekunlaşmaq üzrədir.

# BALAKƏN: ZİRVƏLƏRƏ QOVUŞMAQ

> **"... Bu gün bizim gözəl ölkəmizdə - sürətlə inkişaf edən ölkədə hər bir vətəndaş üçün bütün imkanlar var. Çünki ölkəmizin dinamik inkişafı, yeni iş yerlərinin, yeni istehsalat sahələrinin açılması əlbəttə ki, hər kəs üçün imkan yaradır. O insanlar ki, böyük biliklərə malikdirlər, onlar həyatda öz layiqli yerini tuta bilərlər".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***



Kənd İnvestisiya layihəsi çərçivəsində hesabat dövründə rayonun Tasmalı və Zəyəm kəndlərində abadlıq işləri, Güllük kəndində isə içməli su xəttinin çəkilişi başa çatdırılmışdır. Hazırda layihə çərçivəsində Ağyazı kəndində abadlıq işləri aparılır.

***Təhsil, səhiyyə, mədəniyyət***

Rayon Təhsil şöbəsində cari ildə ötən müddət ərzində təhsilin inkişaf etdirilməsi və keyfiyyətinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirmişdir. Belə ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən rayonun ümumtəhsil məktəblərinin IX və XI siniflərində mərkəzləşdirilmiş qayda-da keçirilən test-buraxılış imtahanlarında IX siniflər üzrə 625, XI siniflər üzrə 482 nəfər şagird iştirak etmişdir. Onlardan 75 nəfəri gürcü bölməsinin IX sinif, 70 nəfəri isə XI sinif şagirdi olmuşdur. İmtahanların nəticələrinə görə IX siniflər üzrə müvəffəqiyyət 78,1 %, XI siniflər üzrə isə müvəffəqiyyət 80,9% olmuşdur.

Hesabat dövründə rayonun ümumtəhsil məktəblərinin müəllim və şagirdləri rayon, zona, respublika və beynəlxalq səviyyəli tədbirlərdə uğurlu nəticələr əldə etmişlər. Fənn olimpiadalarının rayon turunda qalib olmuş 5 nəfər şagird respublika turunda iştirak edərək Qum kənd tam orta məktəbinin IX sinif şagirdi biologiya fənni üzrə, Qaşqaçay kənd tam orta məktəbinin IX sinif şagirdi isə azərbaycan dili və ədəbiyyatı fənni üzrə üçüncü yeri tutaraq bürünc medalla təltif olunmuşlar.

"Fövqəladə hallar uşaqların gözü ilə" mövzusunda keçirilən rəsm müsabiqəsinin respublika turunda 2 nəfər şəhər 2 saylı məktəb liseyin şagirdi birinci yerə, 1 nəfər şəhər 2 nömrəli məktəb-liseyin və 1 nəfər şəhər 4 nömrəli tam orta məktəbinin şagirdi ikinci yerə və 2 nəfər şəhər 2 nömrəli məktəb-liseyin şagirdi isə üçüncü yerə layiq görülmüşlər. Uşaq Yaradıcılıq Mərkəzləri dərnək üzvlərinin əl işlərinə baxış müsabiqəsində İlisu kənd tam orta məktəbinin şagirdi ikinci yeri tutmuşdur. "Şahin" hərbi-idman oyunu üzrə rayon komandası zona yarışlarında birinci, respublika yarışlarında isə yeddinci yeri tutmuşdur.

Hesabat dövründə rayon Mərkəzi Xəstəxanasının 117 nəfər həkimi və 406 nəfər orta tibb işçisi əhaliyə xidmət göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən ötən il olduğu kimi bu il də rayonda fevralın 15-dən may ayının 15-dək əhalinin 18 yaşdan yuxarı 42291 nəfər əhalidən 39965 nəfərinin tibbi müayinədən keçirilməsi təmin edilmişdir. Tibbi müayinədən keçmiş 7526 nəfəri ambulator, 105 nəfəri stasionar müalicəyə cəlb olunmuş, 25 nəfəri isə Bakı şəhərinə müalicəyə göndərilmişdir.

Cari ilin altı ayı ərzində 42 nəfər həkim Həkimlərin Təkmilləşdirmə İnstitutunda, 47 nəfər orta tibb işçisi ixtisasartırma kursunda olmuş, 5 nəfər həkim və 43 nəfər orta tibb işçisi isə sertifikasiya komissiyasından keçmişdir.

Hesabat dövründə 67.8 min manatlıq dərman preparatları alınmış və rayonun bütün tibb müəssisələrinə qaimə əsasında bölüşdürülmüş, güzəştli, imtiyazlı və aztəminatlı xəstələrə 49.8 min manatlıq pulsuz dərman verilmişdir. Həmçinin vərəmli xəstələr üçün Azərbaycan Respublikası Ağ Ciyər Xəstəlikləri İnstitutu tərəfindən 17 min manatlıq pulsuz dərman verilmişdir.

Rayon Mədəniyyət və Turizm şöbəsi Baki şəhəri Dənizkənarı Milli Parkda keçirilən "Novruz" şənliklərində iştirak etmiş, həmçinin 2016-cı ilin "Multikulturalizm ili" elan olunması ilə bağlı Xaçmaz rayonunda keçirilən "Multikultural dəyərləri yaşadaq" adlı I Beynəlxalq festifalda Qax İngiloy kənd mədəniyyət evinin "Şvidkatso" Gürcü Xoru, 27 iyun-1 iyul tarixlərində Bakı şəhərində keçirilən Azsaylı xalqların V İncəsənət Festifalında Ağyazı kənd mədəniyyət evinin "Samur" və Əlibəyli kənd mədəniyyət evinin "Pesvebi" rəqs kollektivi iştirak edərək rayonu layiqincə təmsil etmişdir.

Yeni ailə quran gənclərə ailə dəyərlərini aşılamaq məqsədi ilə cari ilin 6 ayı ərzində Heydər Əliyev Mərkəzində 32 nigah mərasimi keçirilmişdir.

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ